

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 67 (21.728)

*11 aprel 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlət başçısı bildirib ki, birinci rübdə ölkəmiz uğurla inkişaf edib, bizim bütün proqnozlarımız həyatda öz əksini tapıb. Birinci rübün nəticələri göstərir ki, bizim beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir, bütün sosial məsələlər öz həllini tapır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 10 aprel tarixli sərəncamları ilə Azərbaycan Respublikasında tikinti kompleksinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının inşaatçıları da vardır.

**Abbasov Rizvan Xeybər oğlu**
**Əsgərov Bəhruz Əli oğlu**
**İbrahimov Telman Sabir oğlu**
**Quliyev Telman Hüseyn oğlu**
**Seyidov Cəlal Əkbər oğlu**

"Tərəqqi" medalı ilə,

**Seyidov Mirabdulla Ağa oğlu**

"Əməkdar mühəndis" fəxri adı ilə təltif edilmişlər.

## Naxçıvanda yeni yaşıllıqlar və meyvə bağları salınıb





Təbiət bizdən qayğı tələb edir. Onu qorumaq, zənginləşdirərək gələcək nəsillərə çatdırmaq qarşımızda duran əsas vəzifələrdəndir. Muxtar respublikada əlverişli ekoloji mühitin yaradılması sahəsində həyata keçirilən tədbirlər də bu məqsədə xidmət edir. Kəskin kontinental iqlim şəraitinin mövcud olmasına baxmayaraq Naxçıvanda təbii sərvətlərdən səmərəli istifadə olunur, keçirilən iməciliklərdə torpaq xüsusiyyətləri nəzərə alınaraq yeni yaşıllıqlar və meyvə bağları salınır.

Aprelin 8-də muxtar respublikada növbəti iməciliklər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Uzunoba Su Anbarının ətrafında keçirilən iməcilikdə iştirak etmiş, ərazidə yeni meyvə tingləri əkmişdir.

Məlumat verilmişdir ki, ötən illər keçirilən iməciliklər zamanı Uzunoba Su Anbarının ətrafındakı 20 hektar sahədə qoruyucu yaşıllıq zolağı salınmışdır. Bu gün isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivlərinin iştirakı ilə daha 1 hektar ərazidə minə yaxın müxtəlif meyvə tingləri əkilmişdir. Meyvə bağında damcı üsulu ilə suvarma şəbəkəsi qurulacaq, becərmə işləri aqrotexniki qaydalara uyğun aparılacaqdır.

Ali Məclisin Sədri yaşıllıq sahələrinin genişləndirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikada keçirilən iməciliklərdə 30 hektarda 17 min 620 meyvə və meşə, 95 min üzüm tingi əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti yaradılsın.
2. "Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti haqqında Əsasnamə" təsdiq edilsin.
3. "Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin strukturu" təsdiq edilsin.
4. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti aparatının işçilərinin say həddi 28 ştat vahidi müəyyən edilsin.
5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 aprel 2017-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti (bundan sonra - Xidmət) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 aprel tarixli 59-V FR nömrəli Fərmanına əsasən yaradılmışdır.

2. Xidmət elektrik enerjisi istehsalı, ötürülməsi, elektrik enerjisi təchizatı və realizə edilməsi sahəsində (bundan sonra-müvafiq sahədə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

3. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

4. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

5. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştampa və blanka malikdir.

6. Xidmətin aparatının, qurumlarının saxlanması və maddi-texniki təminatı xərcləri elektrik enerjisi satışından daxil olan vəsait və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

7. Xidmət Naxçıvan şəhərində yerləşir.

### II. Xidmətin fəaliyyət istiqamətləri

8. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

8.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

8.2. elektrik enerjisindən səmərəli istifadə edilməsini, elektrik stansiyaları və elektrik şəbəkələrinin təkmilləşdirilməsini və genişləndirilməsini, enerji təchizatında problemlərin aradan qaldırılması sahəsində çevik təşkilatçılıq göstərilməsini, mövcud istehsal güclərindən istifadənin səmərəliliyini təmin edir;

8.3. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### III. Xidmətin vəzifələri

9. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

9.1. müvafiq sahədə qanunvericiliklə müəyyən edilmiş hallarda normativ tənzimləməni həyata keçirmək;

9.2. dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

9.3. digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

9.4. elektrik enerjisinin istehsalı və elektrik təchizatı sahəsində müəyyən olunmuş dövlət siyasətini həyata keçirmək;

9.5. mülkiyyət formasından asılı olmayaraq bütün elektrik istehlakçılarını elektrik enerjisi ilə təmin etmək;

*Ardı 2-ci səhifədə*

9.6. muxtar respublikada elektrik enerjisini bölüşdürmək və elektrik enerjisindən qənaətlə istifadə olunmasına nəzarət etmək;

9.7. istehlakçılara ötürülən elektrik enerjisinin dəyərinin maksimum səviyyədə toplanmasına nail olmaq;

9.8. Araz çayı üzərində olan su elektrik stansiyalarında dövlətlərarası müqaviləyə uyğun olaraq suyun səviyyəsinə nəzarət etmək və elektrik enerjisi istehsalını təmin etmək;

9.9. muxtar respublika ərazisində mövcud olan elektrik stansiyalarında avadanlıqların saz vəziyyətdə saxlanmasını və elektrik enerjisi istehsalını təmin etmək;

9.10. müvafiq sahə üzrə proqramları hazırlamaq və həyata keçirmək;

9.11. müvafiq sahədə islahatların həyata keçirilməsini təmin etmək, sahənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək, elektrik enerjisi istehsalı və elektrik təchizatı sahəsində mövcud norma və qaydalara riayət olunmasını təmin etmək;

9.12. əsaslı vəsait qoyuluşundan səmərəli istifadə etmək, inşa edilən obyektlərin, istehsal güclərinin və əsas fondların vaxtında istifadəyə verilməsini təmin etmək;

9.13. müvafiq sahədə güclü istehsal bazası yaratmaq, güc transformatorlarının və digər elektrik avadanlıqlarının təmirini təşkil etmək;

9.14. elektroenergetika sahəsində investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunmasında iştirak etmək və bu sahədə müvafiq tədbirlər görmək;

9.15. mövcud transformator yarımstansiyaları və elektrik verilişi xətlərinin istismarını təşkil etmək, avadanlıq və istehsalat bazalarının gücündən səmərəli istifadə etmək;

9.16. müvafiq sahədə yeni obyektlərin tikilməsi, mövcud yarımstansiya və elektrik verilişi xətlərinin yenidən qurulmasının layihələşdirilməsi zamanı texniki rəy vermək, elektroenergetika sahəsində bütün obyektlər üzrə istismara qəbul komissiyasının işində iştirak etmək;

9.17. elektrik stansiyalarında enerji istehsalına, elektrik təchizatı üçün avadanlıqların və elektrik verilişi xətlərinin istismarına nəzarət etmək;

9.18. hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisindən səmərəli və qənaətlə istifadə olunmasına nəzarət etmək;

9.19. elektroenergetika obyektlərinin layihələşdirilməsinin dövlət ekspertizasını aparmaq, onları təsdiq etmək;

9.20. elektroenergetika obyektlərinin vəziyyəti və onlarda fövqəladə hallar yaranarkən ehtimal olunan nəticələrin proqnozlaşdırılması və qiymətləndirilməsində iştirak etmək;

9.21. Xidmətin balansında olan elektrik stansiyaları, elektrik verilişi xətləri və transformator yarımstansiyalarının istismarında təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin etmək;

9.22. elektroenergetika sahəsində əsaslı tikinti, yenidənqurma, təmir və istismar işlərini yerinə yetirmək;

9.23. kadrların hazırlanmasında və əlavə təhsilində iştirak etmək və onların seçilib yerləşdirilməsini təmin etmək;

9.24. Xidmətdə işçilərin sosial-məişət və əmək şəraitlərini yaxşılaşdırmaq, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat-sanitariya qaydalarına riayət olunmasını təmin etmək;

9.25. enerji istehsalında istifadə edilən yanacağın sərfinin və elektrik enerjisinin nəqlində itkilərin azaldılması üçün lazımi texniki-təşkilati tədbirlərin işlənib hazırlanmasına və onların yerinə yetirilməsinə nəzarəti təşkil etmək;

9.26. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

9.27. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiq edilməsini təmin etmək;

9.28. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

9.29. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək;

9.30. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

9.31. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

9.32. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**IV. Xidmətin hüquqları**

10. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

10.1. müvafiq sahəyə aid olan qanunvericilik aktlarının layihəsinin hazırlanmasında iştirak etmək;

10.2. elektrik enerjisinin istehsalını və istehlakçılara ötürülməsi işlərini təşkil etmək;

10.3. bütün hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisindən istifadə qaydalarına və normalarına əməl olunmasına nəzarət etmək, bu norma və qaydaları pozan şəxslərə qarşı qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görmək;

10.4. elektrik enerjisindən istifadə edən hüquqi və fiziki şəxslərdən enerjidən istifadəni yaxşılaşdırmaq üçün müvafiq tədbirlərin yerinə yetirilməsini tələb etmək;

10.5. elektrik enerjisi təchizatı sahəsində planlaşdırılmış təmir-istismar işlərinin aparılması ilə əlaqədar enerji təchizatında yarana biləcək fasilələr haqqında istehlakçılara məlumat vermək;

10.6. elektrik enerjisindən istifadə qaydalarını pozan, elektrik avadanlıqlarını, elektrik verilişi xətlərini zədələyən, mühafizə zonasında müvafiq icazə olmadan tikinti işləri aparan şəxsləri inzibati məsuliyyətə cəlb etmək;

10.7. elektroenergetika sahəsində qanunvericiliyin tələblərinə uyğun gəlməyən işlərin dayandırılması barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

10.8. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

10.9. qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

10.10. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

10.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

10.12. qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**V. Xidmətin fəaliyyətinin təşkili**

11. Xidmətin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Xidmətin sistemini təşkil edir. Xidmət öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

12. Xidmətin strukturunu təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir. Xidmətin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

13. Xidmətin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Rəis rəhbərlik edir. Rəis Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

14. Rəisin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır.

Rəisin müavinləri onlara Rəis tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

15. Rəis:

15.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

15.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Xidmətin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir.

15.3. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla Xidmətin aparatının strukturuna daxil olan qurumların və tabeliyində olan digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) əsasnamələrini (nizamnamələrini) təsdiq edir;

15.4. qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Xidmətin aparatının, qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

15.5. Xidmətin aparatının işçilərini, strukturuna daxil olan qurumların rəhbərlərini, həmçinin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür, qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir;

15.6. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

15.7. Xidmətdə ilkin uçot və hesabatı təşkil edir, hesabat balanslarını təsdiq edir, mühasibat uçotunun və hesabat işlərinin aparılmasına nəzarət edir;

15.8. Xidmətin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

15.9. Xidməti təmsil edir.

16. Xidmətdə Rəisdən (kollegiyanın sədri), onun müavinlərindən və Xidmətin rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Xidmətin kollegiyasının tərkibinə, həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilər.

17. Xidmətin kollegiyasının üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

18. Xidmətin kollegiyası öz iclaslarında Xidmətin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

19. Xidmətin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Xidmətin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Xidmətin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

20. Xidmətin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və Rəis tərəfindən təsdiq edilir.

21. Xidmətin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Rəis bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Xidmətin kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

22. Xidmətin kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri, habelə Naxçıvan Muxtar Respublikasında qeydiyyatdan keçən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilər.

23. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Xidmətdə ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər. Elmi-Texniki Şura haqqında əsasnamə Rəis tərəfindən təsdiq edilir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin

## STRUKTURU

**1. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin aparatı (şöbələr və sektorlar).**

**2. Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətinin strukturuna daxil olan qurumlar:**

Yüksəkgərginlikli Elektrik Şəbəkəsi

Şəhər (rayon) elektrik şəbəkələri

# Gənclər hərbi xidmətə yola salınır

“Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 mart tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini Emin Səfərov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Mirməcid Seyidov, təhsil nazirinin müavini Əli Vəliyev çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.



Valideyn Ceyhun Eyvazov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Hafiz Cəfərov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi ordumuzun istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir.

Xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib və əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını bir daha uca edəcəklər .

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalma mərasimləri keçirilib.

Səbuhi HƏSƏNOV

# Naxçıvanda təşkil olunan “Kətə” festivalı böyük maraq doğurub



***Naxçıvan Muxtar Respublikasında xalqımıza məxsus milli və mənəvi dəyərlərin, folklorumuzun, adət-ənənələrimizin, o cümlədən milli mətbəx nümunələrimizin qorunub saxlanılmasına, onun təbliğ edilməsinə, yaşadılmasına böyük diqqət göstərilir.***

Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı bu sahənin inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə muxtar respublikada xalq yaradıcılığı ilə bağlı silsilə tədbirlər təşkil olunur. Aprelin 8-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində başlanan və iki gün davam edən “Kətə” festivalı da muxtar respublikanın şəhər və rayonlarına xas müxtəlif çeşidli kətə növlərinin və onların hazırlanması qaydalarının nümayişi baxımından olduqca əhəmiyyətli hadisə olub.





Naxçıvanda keçirilmiş digər festivallarda olduğu kimi, “Kətə” festivalına da maraq böyük idi. Festival günləri havanın da gözəl olmasından istifadə edən naxçıvanlılar dəstə-dəstə Naxçıvanqalaya axın edirdilər. Şənbə günü tədbirin başlanmasına hələ bir neçə saat qalmış festival meydanı qələbəlik idi. Bundan əvvəl Naxçıvanda keçirilmiş “Yaradıcı əllər”, “Göycə”, “İstedadlı uşaqlar”, “Plov”, “Yallı”, “Naxçıvan çörəkləri”, “Arıçılıq məhsulları – bal” festivalları zamanı göstərilmiş yüksək təşkilatçılıq və gülərüz xidmətlərdən məmnun qalmış naxçıvanlılara və şəhərimizin qonaqlarına bu dəfə də geniş məzmunda istirahət, iaşə və konsert proqramları təqdim olunurdu. Festivala gələnlər xalqımızın qədim kulinariya mədəniyyətində mühüm yer tutan xəmir yeməklərindən biri olan kətənin hazırlanması və süfrəyə təqdim olunmasını canlı olaraq izləmək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə edirdilər.

Qeyd edək ki, qədim dövrlərdən bu günə qədər Naxçıvanda bişirilən






şomu kətəsi, qarışıq göyərti kətəsi, çiriş kətəsi, gicitkən kətəsi, balqabaq kətəsi, mərcimək kətəsi, cəviz kətəsi, halvalı kətə, şirin kətə, döymə kətə çox məşhur olub. Yazın ilk aylarında yeyilə bilən yabanı bitkilərdən hazırlanan kətə çeşidləri Naxçıvan mətbəxində xüsusi yerə malikdir. Müxtəlif minerallar və vitaminlərlə zəngin olan belə bitkilərdən hazırlanan kətə insan orqanizmi üçün çox faydalıdır. Festivalda həmsöhbət olduğumuz Naxçıvan şəhər sakinlərindən Məftun İsmayılov, Aynur Qulamova, Zeynəb Əliyeva və digərləri burada mənalı istirahət etdikləri, belə mədəni tədbirlərin onlarda xoş ovqat yaratdığını və həm Naxçıvana gələn turistlərdə, həm də gələcəyimiz olan uşaqlarda milli və mənəvi dəyərlərə maraq oyatdığını bildirdilər. Əslən Xok kəndindən olan Məftun müəllim qeyd etdi ki, əvvəllər ilin bu vaxtlarında kəndimizdə bütün yeməli otlardan kətə bişiriləndə dadından doymaq olmurdu. İndi bu mətbəx ənənələrinin yaşadılmasına görə çox sevinirik. Bu həm də mədəniyyətimizin gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Qeyd edək ki, festival günləri ərzində kətə və unlu-qənnadı məhsul istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər əhaliyə xidmət göstərib. Həmçinin Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı, Naxçıvan Musiqi Kollecinin “Qədim musiqi alətləri” və “Gənclik” instrumental ansamblları, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin “Şəlalə” instrumental ansamblı, Naxçıvan Aşıqlar Birliyinin aşıqları və “Şərur” Xalq Yallı Ansamblı öz maraqlı çıxışları ilə iştirakçılarda xoş ovqat yaradıb.

✍ **Əli CABBAROV**

# Təhsilin müasir problemləri və yeni yanaşmalar

## *Naxçıvan Müəllimlər İnstitutunda keçilən ustad dərsi bu mövzuya həsr edilib*



***Bu günlərdə Bakı Elm-Təhsil Mərkəzinin rəhbəri, pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadiqov Naxçıvan Müəllimlər İnstitutunda “Təhsilin müasir problemləri və yeni yanaşmalar” mövzusunda ustad dərsləri keçib. İnternet və kompüter sistemlərindən, innovativ texnologiyalardan istifadə olunmaqla keçilən ustad dərsində magistrlər, dissertantlar, doktorantlar, gənc müəllimlər və pedaqoji kollektivin üzvləri iştirak ediblər.***

İnstitutun rektoru, Əməkdar elm xadimi, professor Oruc Həsənli Fərahim Sadiqovun geniş pedaqoji fəaliyyəti, ölkəmizdə pedaqoji kadrların yetişdirilməsi sahəsindəki təcrübəsi barədə məlumat verib.

Fərahim Sadiqov öz ustad dərsində təhsilimizin yeni müstəqillik mərhələsini, yeni yanaşma tərzini geniş şəkildə şərh edib. Ulu öndərimiz Heydər Əliyev hər bir cəmiyyətin, ölkənin inkişafında təhsilin əhəmiyyətini önə çəkib və yeni təhsil strategiyasının hazırlanmasını tövsiyə edib”, – deyən professor diqqətə çatdırıb ki, hazırda bu strategiya milli-mənəvi dəyərlərimiz baxımından təhlil ediləcək yeni baxışlar müstəvisindən tətbiq olunur.

Professor yeni islahatın tələbləri baxımından dərslik və dərs vəsaitlərinin təkmilləşdirilməsinin pedaqoji prosesdə tətbiqi metodlarından, müəllim-şagird münasibətlərinin yenidən qurulmasının vacibliyindən və qarşıya çıxan problemlərin aradan qaldırılması yollarından da söhbət açıb.

Təhsilin mahiyyətini, məzmununu, forma və növlərini, fasiləsiz təhsil sistemini qabaqcıl beynəlxalq təcrübədəki təhsil örnəkləri ilə müqayisəli şəkildə izah edən alim təhsil qanunundakı yeniliklər haqqında ətraflı məlumat verib. Bildirib ki, ölkəmizdə son təhsil direktivlərindən biri olan “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təhsilin modernləşdirilməsində əsas rol oynayır.

Qeyd edilib ki, Azərbaycan Respublikasında həyata keçirilən təhsil siyasəti onun həm milli, həm də ümumbəşəri dəyərlər əsasında inkişafını özündə şərtləndirir. Bunun üçün təhsilə, ilk növbədə, dövlətin qayğısı zəruri hesab olunur. Ölkəmizdə təhsilin inkişafına qayğı prioritet vəzifələr sırasında olduğundan bu istiqamətdə keçirilən tədbirlər daimi xarakter alıb. Bu da yeni nailiyyətlər qazanılmasında başlıca amildir.

Dərsdə mövzu ilə bağlı trafaretlər nümayiş etdirilib və slaydlar vasitəsilə bir sıra qabaqcıl dünya ölkələri ilə Azərbaycan təhsil sistemi müqayisə olunub.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi, torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası cari ilin ilk üç ayında Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmışdır. Rüb ərzində daşınmaz əmlakın dövlət reyestrində 1159 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 880 texniki sənəd hazırlanmışdır. Vətəndaşların rahatlığını və işlərin operativ təşkilini təmin etmək üçün muxtar respublikanın 23 yaşayış məntəqəsində 179 vətəndaşa səyyar xidmət göstərilmişdir.*

# Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələr uğurla icra olunur

Bu dövrdə əmlakların real bazar dəyərinə uyğun qiymətləndirilməsi ilə əlaqədar 49 müraciət icra edilmiş, 285 əmlakın dəyəri məlumat bazasına daxil edilmişdir. Naxçıvan Muxtar Respublikasında ümumi və suvarılan torpaqların torpaq mülkiyyətçiləri arasında bölüşdürülməsi və torpaqdan istifadə vəziyyətinə dair dəyişikliklər və sahə kadastr məlumatları nəzərə alınmaqla torpaq balansı tərtib olunmuşdur.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın aid bəndlərinin icrası məqsədilə Şərur rayonunun Çomaxtur, Şahbuz rayonunun Kiçikoba, Ordubad rayonunun Düylün, Sədərək rayonunun Sədərək kəndlərində yerli icra nümayəndələrinin və bələdiyyələrin iştirakı ilə əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması və torpaqlardan səmərəli istifadə ilə bağlı maarifləndirici tədbirlər keçirilmişdir. Naxçıvan şəhər inzibati ərazi vahidinə daxil olan bütün bələdiyyələrin, Ordubad rayon inzibati ərazi vahidinə daxil olan Aşağı Əylis, Yuxarı Əylis, Aşağı Əndəmic, Yuxarı Əndəmic, Kələki, Unus, Dəstə, Dırnıs, Vənənd və Gənzə bələdiyyələrinin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri hazırlanaraq Bələdiyyələrin Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmişdir. Aza, Azadkənd, Üstüpü, Bist və Parağaçay bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Bundan başqa, Şərur, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarının yay otlaqlarının xəritəsi, Babək və Kəngərli rayonlarının dövlət ehtiyat fondu və qış otlaq sahələrində yerləşən əkinəyararlı torpaq sahələrinin yerquruluşu planı hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” 2016-cı il 2 aprel tarixli Fərmanına uyğun olaraq Naxçıvan şəhərinin 1 nömrəli sahə inzibati ərazi dairəsində müasir geodeziya-ölçü avadanlıqları vasitəsilə torpaq sahələrinin dəqiqləşdirilməsi işləri aparılmış, Şərur rayonunun Yengicə kəndində həyətyanı torpaq sahələrinin ölçülməsi işi davam etdirilmişdir.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin kollektivi muxtar respublikanın torpaq fondundan səmərəli istifadə sahəsində fəaliyyətini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Naxçıvanda magistratura və rezidenturaya qəbul imtahanları keçirilib



***Aprelin 9-da Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi Naxçıvan şəhərində magistratura və rezidenturaya qəbul imtahanının birinci mərhələsini və Azərbaycan dili (ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün) imtahanlarını keçirib.***

Magistratura və rezidenturaya qəbul imtahanı Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbin, Azərbaycan dili fənnindən test imtahanı isə 7 nömrəli tam orta məktəbin binalarında aparılıb. İmtahanlar saat $13^{00}$-da başlanıb. Magistratura və rezidenturaya qəbul imtahanlarının müddəti 2 saat 30 dəqiqə, Azərbaycan dili fənnindən test imtahanının müddəti isə 45 dəqiqə olub. İmtahanlarda iştirak etmək üçün magistraturaya 346, rezidenturaya 50, Azərbaycan dili fənnindən isə 24 nəfər qeydiyyatdan keçib.

İmtahanlara 45 nəzarətçi müəllim, 6 imtahan rəhbəri cəlb olunub.

Məlumat üçün bildirək ki, imtahanlara ərizələrin qəbulu internet vasitəsilə martın 10-dan 28-dək aparılıb. İmtahanların keçirildiyi binalar əvvəlcədən yoxlanılıb, zallarda abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb. Nəticələr yaxın günlərdə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin internet səhifəsində yerləşdiriləcək.

✍ **Fatma BABAYEVA**

## Bakıda keçirilən beynəlxalq turizm sərgisində Naxçıvan Muxtar Respublikası da geniş təmsil edilib




Aprelin 6-8-də Bakı Ekspo Mərkəzində dünyanın 22 ölkəsindən 272 şirkətin iştirak etdiyi XVI Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər "AITF 2017" sərgisi keçirilib. Bu sərgidə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları və Naxçıvandakı mehmanxanaların nümayəndələri də iştirak edib, diyarımızın turizm potensialı geniş təbliğ olunub.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyindən aldığımız məlumata əsasən, sərgidəki muxtar respublikanın turizm imkanlarının təqdim olunduğu 14 paneldə Dövlət Bayrağı Meydanı, "İslam Mədəniyyəti Paytaxtı Naxçıvan – 2018" loqotipi ilə yanaşı, Naxçıvanın turizm ehtiyatlarının və turizm-xidmət obyektlərinin reklam fotoları yer alıb. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanıb çap etdirilmiş, "Naxçıvan Muxtar Respublikası turist xəritəsi", "Naxçıvan Turizm İnformasiya Mərkəzi" və muxtar respublikadakı turist marşrutları barədəki bukletlər və yerləşdirmə obyektlərinin reklam-informasiya materialları sərgi iştirakçılarına paylanılıb, müxtəlif əl işləri tanıdılıb. Naxçıvan stendindəki monitor vasitəsilə də muxtar respublikanın turizm imkanları ilə bağlı reklam çarxları nümayiş etdirilib.

Sərgi çərçivəsində müxtəlif turizm firmalarının nümayəndələri ilə görüşlər keçirilib, Naxçıvan Muxtar Respublikasının həmin firmaların turpaketlərinə salınması və digər məsələlər müzakirə edilib.

**Əli CABBAROV**

## Universitet əməkdaşları Xatirə Muzeyində oldular

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universiteti əməkdaşlarının və tələbələrinin muzey ekskursiyaları davam edir.***

Muzeyin bələdçisi Rəqsanə Kərimova muzey haqqında ətraflı məlumat verib. O bildirib ki, Xatirə Muzeyi ermənilər tərəfindən törədilən soyqırımı qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsini əbədiləşdirmək məqsədilə 2000-ci ildə yaradılıb. Muzey 2014-cü ildən Şəhidlər xiyabanı yaxınlığında yerləşən yeni binada fəaliyyət göstərir.

Bildirilib ki, ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli cinayətlərin izləri buradakı eksponatlarda öz əksini tapıb. XX əsrin sonlarında baş verən Qanlı Yanvar faciəsi, ermənilərin xüsusi amansızlıqla törətdiyi ən dəhşətli soyqırımı olan Xocalı qətliamı ilə bağlı eksponatlar da muzeydə ayrıca yer alıb. Muzeydə Azərbaycanın Milli qəhrəmanları, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların fotoşəkilləri və şəxsi əşyaları, onların ermənilərə qarşı döyüşlərini əhatə edən materiallardan, həmçinin qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablardan ibarət 1849 eksponat mühafizə və nümayiş etdirilir.

**Taleh HAXVERDİYEV**

## Hüquqi maarifləndirmə tədbirlərinə başlanılıb

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən bələdiyyələrə metodik köməkliklər göstərilməsi məqsədilə maarifləndirmə tədbirlərinə başlanılıb. İlk belə tədbir Ordubad rayonunun Sabirkəndində keçirilib. Kənd mərkəzində təşkil olunan tədbirdə Ordubad rayonunda fəaliyyət göstərən bələdiyyələrin sədrləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə nazirliyin şöbə rəisi Səttar Zamanov açıb. Muxtar respublikada fəaliyyət göstərən bələdiyyələrə göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, rayonda bələdiyyələrin normal fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu qurumların əksəriyyəti yeni binalarda yerləşdirilib. Bunun müqabilində bələdiyyə üzvləri məsuliyyətlərini dərindən dərk etməli, fəallıq göstərməlidirlər.

Nazirliyin əməkdaşlarından Xəyal Eyvazov "Bələdiyyələrin fəaliyyətində qanunvericilikdən irəli gələn vəzifələrin yerinə yetirilməsi", Ayaz Məhərrəmov "Bələdiyyə orqanlarında vətəndaşların müraciətləri barədə münasibətləri tənzimləyən qanunvericilik" mövzularında çıxış ediblər.

Məruzələrdə vurğulanıb ki, ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bələdiyyələrin cəmiyyətdə özünə layiqli yer tutması üçün hər cür şərait yaradılıb. Bələdiyyələrin qanunvericiliyin tələblərinə əməl etmələri baxımından onlara metodik köməklik göstərilməsi məqsədilə, habelə hüquqi maarifləndirmə tədbirlərinin əhəmiyyəti nəzərə alınaraq Ədliyyə Nazirliyi tərəfindən bütün rayonlarda mütəmadi olaraq seminar-müşavirə keçirilir.

Tədbirdə bələdiyyələrə "Bələdiyyə büdcəsinin planlaşdırılması: şəffaflıq və hesabatlılıq" adlı metodik vəsait paylanılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Belə tədbirlərin muxtar respublikanın digər rayon (şəhər) bələdiyyələri üçün keçirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Tibb Kollecinin tələbə və müəllim heyəti Türkiyədə təcrübə kursuna göndərilib

***İxtisaslı kadrların hazırlanması və beynəlxalq elmi əlaqələrin genişləndirilməsi məqsədilə Naxçıvan Tibb Kollecinin 12 nəfərdən ibarət müəllim və tələbə heyəti Türkiyə Respublikasının Ankara şəhərində yerləşən Halide Edip Mesleki və Teknik Anadolu Liseyində biraylıq təcrübə kursuna yola salınıb.***

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən kollecin direktoru Sona Məmmədova Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin davamlı xarakter aldığını bildirib. Qeyd edib ki, ixtisaslı kadrların hazırlanması və beynəlxalq elmi əlaqələrin genişləndirilməsi məqsədilə Naxçıvan Tibb Kollecinin müəllim və tələbələri ötən il də Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetində və Ankara şəhərində yerləşən Halide Edip Mesleki və Teknik Anadolu Liseyində keçirilən təcrübə kurslarında ayrı-ayrı heyətlərlə təmsil olunublar. Durağan Mesleki və Teknik Anadolu Liseyi ilə də Naxçıvan Tibb Kolleci arasında tələbə mübadiləsi çərçivəsində qarşılıqlı qardaşlaşma münasibətləri yaradılıb.

Tələbələr kurs müddətində araşdırma xəstəxanasının daxili xəstəliklər və cərrahiyyə, təcili tibbi yardım üzrə bölmələrində, yenidoğulmuşlar, döş qəfəsi, yoluxucu xəstəliklər şöbələrində plastik və keysəriyyə əməliyyatlarını izləyib, doğuş palatalarında, genetik laboratoriyada iş prosesi ilə tanış olub, müasir tibbi avadanlıq və cihazların istifadə qaydalarını, yeni müayinə-müalicə üsullarını mənimsəyiblər. Həmçinin açıq ürək, kəskin apendisit, LOR, göz, keysəriyyə əməliyyatlarında, şəkərli diabet xəstələrində qanqrenalı yaraların işlənməsində, müxtəlif manipulyasiyaların aparılmasında, sarğıların qoyulmasında, digər tibbi proseslərdə iştirak edib, qarşılıqlı təcrübə mübadiləsi aparıblar. Növbəti heyətdə isə mamalıq, müalicə, tibb bacısı işi üzrə təhsil alan tələbələr təmsil olunurlar.

Kursa yollananlardan həkim-provizor Zinyət Məmmədova, mama-ginekologiya üzrə həkim rezident Lalə İbrahimova, üçüncü kurs tələbəsi Səadət Xudaverdiyeva onların müasir nəzəri və təcrübi biliklərə yiyələnmələri üçün yaradılmış bu şəraitdən səmərəli istifadə edəcəklərini bildiriblər.

Türkiyə Respublikasının tanınmış klinika və ali məktəbləri arasında qarşılıqlı əməkdaşlıq əlaqələri bundan sonra da davam etdiriləcəkdir. Əlaqələrin inkişaf etdirilməsi Naxçıvan Tibb Kollecində ixtisaslı tibb işçilərinin hazırlanması işinə öz töhfəsini verir və muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsi məqsədi daşıyır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 may 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | Babək "Şərab 2 Yeddilər-ASK" MMC-yə məxsus əmlak | Naxçıvan şəhəri, Hacıniyyət kəndi | 192.000 | 9.600 |
| 2. | 0,0673 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 (iki) otaqlı, 46.0 kv.m yaşayış, 55.01 kv.m qeyri-yaşayış, 39.37 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şahbuz rayonu, Kolanı kəndi | 6800 | 340 |
| 3. | Naxçıvan şəhəri, H.Aslanov küçəsi, döngə 2, ev 5A ünvanında yerləşən fərdi yaşayış evi | Naxçıvan şəhəri, H.Aslanov küçəsi, döngə 2, ev 5A | 30.500 | 1525 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına 12 may 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür. Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər. Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 17 may 2017-ci il tarixdə, saat 11⁰⁰-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz. Əlaqə telefonu: 545-01-38***

## Şərurda muxtar respublika zona birinciliyinə yekun vurulub

***Şərur Olimpiya-İdman Kompleksinin stadionunda aşağı yaş liqalarının və məktəbli kubokunun muxtar respublika zona birinciliyinə yekun vurulub.***



AFFA-nın bayrağı altında keçirilən və aprelin 1-dən start götürən U-10, U-11, U-12, U-13 və U-14 liqalarının zona birinciliyində hər 5 yaş qrupunda Naxçıvan şəhərini və muxtar respublikanın 7 rayonunu təmsil edən 8 komanda ilə yanaşı, DİN-in "Darıdağ" klubunun komandaları da mübarizə aparıb. Müvafiq olaraq "Şərur", "Kəngərli", "Darıdağ", U-13 və U-14 liqada isə "Naxçıvan" komandası birinci olub. Aprelin 3-dən start götürən "Coca-Cola Məktəbli Kuboku"nun zona birinciliyində isə Şərur rayon Yengicə kənd tam orta məktəbinin 7-ci sinif şagirdləri həmyaşıdlarını qabaqlayaraq turnirin qalibi olublar.

Qeyd edək ki, hər 5 yaş qrupu üzrə keçirilən liqaların və məktəbli kubokunun zona birinciliyinin qalibləri aprelin ikinci yarısında Bakıda keçiriləcək ölkə birinciliyinin final mərhələsində muxtar respublikanı təmsil edəcəklər.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Filippin vətəndaşı Merly Openanın adına olan Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 291